# Müstəqillik düşüncəsi və

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının ərsəyə gəlməsində qarşıya çıxan çətinliklərdən danışarkən kitabı yazan müəlliflərin fərqli zövq və üslub sahibi olmaları faktını da unutmaq olmaz.



**Muxtar KAZIMOĞLU**

*AMEA-nın müxbir üzvü*

Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubiley tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıda duran vəzifələrdən danışarkən deyib: "Hesab edirəm vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı əsər yaradılarsa, bayramımıza çox gözəl töhfə olar". Bu il ölkə başçısı dövlət müstəqilliyimizin bərpa olunmasının 25 illiyi münasibətilə xüsusi sərəncam imzalayıb və həmin sərəncamın işığında müxtəlif tədbirlər həyata keçirilib. Həmin tədbirlər sırasında dövlət müstəqilliyimizlə bağlı elmi əsərlərin ortaya çıxmasını xüsusi qeyd etmək lazımdır. Belə əsərlərdən biri akademik İsa Həbibbəylinin həmmüəllifliyi və elmi redaktorluğu ilə hazırlanıb çap olunan "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabıdır (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016). Kitab Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun yeni bir uğuru, müstəqillik bayramına həmin elmi qurumun qiymətli bir töhfəsidir.

Geniş həcmdə düşünülmüş, 2 clddən, 1880 səhifədən ibarət bir kitabda müstəqilliyin bu günü ilə məhdudlaşmaq, müstəqillik düşüncəsinin tarixi yoluna ümumi şəkildə olsa da, nəzər salmamaq, əlbəttə, mümkün deyildi. Ona görə müəlliflərin kitabda xüsusi diqqət yetirdiyi məsələlərdən biri məhz ədəbi irs və varislik məsələsidir. Kitabın aparıcı müəllifi (İsa Həbibbəyli) və 44 nəfərdən (Tehran Əlişanoğlu, Qəzənfər Paşayev, Şirindil Alışanlı, Vaqif Yusifli, Məmməd Əliyev, Qurban Bayramov, Bədirxan Əhmədli, Tahirə Məmməd, Yaşar Qasımbəyli, Asif Rüstəmli, İslam Qəribli, Rahid Ulusel, Nərgiz Cabbarlı, Mənzər Hüseynova, Lalə Həsənova, Gülər Abdullayeva, Elnarə Akimova, Almaz Ülvi, Salidə Şərifova, Eşqanə Babayeva, Cavidə Məmmədli, Xanım Zahirova və başqalarından) ibarət müəlliflər heyəti müstəqillik dövrü ədəbiyyatının ideya-bədii mənbələrindən, bu ədəbiyyatın bəhrələndiyi qaynaqlardan bəhs etməyi vacib sayır. Tamamilə təbii haldır ki, müstəqillik düşüncəsinin kitabda nişan verilən ədəbi qaynaqları içərisində şifahi xalq ədəbiyyatı ilkin sırada yer alır, "keçmə namərd körpüsündən, qoy aparsın sel səni" kimi məşhur deyimlərdə ifadəsini tapan əyilməzlik duyğusu, "Dədə Qorqud" kimi möhtəşəm eposda ifadəsini tapan sarsılmaz Oğuz eli nizamı yazılı ədəbiyyatımızdakı müstəqil dövlətçilik düşüncəsinin ilkin mənbələri cərgəsinə daxil edilir. Tamamilə təbii haldır ki, XX əsrin əvvəllərində "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarında ifadəsini tapan istiqlal məfkurəsi kitabda klassik ədəbi irsin əsrlər boyunca damla-damla, zərrə-zərrə yetişdirib hasilə gətirdiyi bir məfkurə kimi qiymətləndirilir. Nizamidə insan mənəviyyatının hər şeydən uca tutulması, Nəsimidə insanın dünyaya sığmazlığının aparıcı mövzuya çevrilməsi, Füzulidə ilahi həqiqətə can atan aşiqin ideal daşıyıcısı olması, Vaqifdə milliliyin yeni bir intibah epoxası yaratması, Mirzə Fətəlidə Nuxa, Lənkəran, Şəmsəddin, Ağcabədi, Təbriz kimi konkret adlarla təmsil olunan məmləkətin dərdsərindən danışılması XX əsr istiqlal ədəbiyyatının mühüm istinad nöqtələri sayılır. Vətənsevərliyin birbaşa və dolayı şəkildə ifadə olunmasını, vətəni vəsf etməklə cəmiyyətdəki nöqsanları tənqid etməyin eyni amala bağlı olmasını iki mühüm istiqamət kimi sovet dövrü Azərbaycan ədəbiyyatında da görən kitab müəllifləri bu dövrün şeir, nəsr və dramaturgiyasına ümumi nəzər salarkən ədəbi irs və varislik məsələsinin, bəlkə də, ən həssas bir nöqtəsinə toxunmuş olurlar. Nöqtənin həssaslığı ondadır ki, sovet quruluşunu inkar edən ədəbiyyat bu quruluşu vəsf edən ədəbiyyatla eyni bir müstəvidə araşdırılmalı, ortaq məxrəc başqa bir yerdə yox, məhz inkarla təsdiq arasında axtarılmalıdır. Digər məsələlərdə olduğu kimi, bu həssas məsələdə də kitab müəllifləri bütöv ədəbiyyat konsepsiyasına əsaslanaraq ədəbiyyatın bir mərhələsini o biri mərhələsinə, bir nümayəndəsini başqa bir nümayəndəsinə qarşı qoymaq meylindən uzaq olurlar. Bütün mərhələləri və fərqli-fərqli təmayülləri ilə eyni bir ədəbiyyat - vahid Azərbaycan ədəbiyyatı! Məsələyə bu cür yanaşmağın nəticəsidir ki, sovet Azərbaycanını vəsf edən Səməd Vurğunla Azərbaycanda sovet sisteminin dağılması prosesində iştirak edən şairlər (məsələn, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Sabir Rüstəmxanlı) arasında üzvi varislik əlaqəsini görmək və göstərmək mümkün olur. Müxtəliflik içərisində birləşdirici məqamları müəyyənləşdirib təhlili həmin məqamlar üzərində aparmaq "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının mühüm məziyyətlərindən biri kimi diqqəti cəlb edir. Müxtəliflik ədəbiyyatın qədim dövrləri ilə müasir mərhələsinin müqayisəsində ortaya çıxırsa, bu, məsələnin, yalnız bir tərəfidir. Məsələnin başqa və daha vacib tərəfi isə ondadır ki, araşdırmaya cəlb edilən müstəqillik dövrü Azərbaycan ədəbiyyatının özü ideya-məzmun və forma baxımından zəngin, kifayət qədər çoxqatlı və çoxtəmayüllüdür. Müraciət olunan ədəbi materialın məzmun və formaca nə qədər zəngin, çoxqatlı və çoxtəmayüllü olması barədə aydın təsəvvür əldə etmək üçün belə bir fakta diqqət yetirmək lazım gəlir: kitab müəllifləri üslubca və dünyagörüşcə bir-birinə çox da bənzəməyən 70-dən artıq yazıçının bədii yaradıcılığından və təbii ki, ilk növbədə onların müstəqillik dövrünə təsadüf edən əsərlərindən bəhs etməli olublar. 70-dən çox yazıçının onlarla əsəri ilə təmsil olunan 25 illik bir ədəbi dövr barədə fikir söyləmək ciddi elmi ümumiləşdirmələr tələb edib. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" həmin tələblərə cavab verən, ciddi elmi ümumiləşdirmələri ilə seçilən bir kitabdır.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının ərsəyə gəlməsində qarşıya çıxan çətinliklərdən danışarkən kitabı yazan müəlliflərin fərqli zövq və üslub sahibi olmaları faktını da unutmaq olmaz. Unutmaq olmaz ki, müxtəlif üslublu ədəbiyyatşünas və tənqidçinin (nə az, nə çox - düz 44 müəllifin) enerjisini vahid məqsədə doğru yönəltmək elə də asan iş deyil və bu iş məhz yüksək elmi təşkilatçılıq hesabına başa gəlib. Elmi təşkilatçılıq işi akademik İsa Həbibbəylinin timsalında bir yandan özünü ciddi elmi redaktorluq fəaliyyətində göstəribsə, digər tərəfdən də istiqamətverici nəzəri bölmələrin yazılması ilə meydana qoyulub. Nəzəri bölmələr ayrı-ayrı mövzuların və janrların dinamikasını, yazıçıların forma axtarışlarını izləməyə, ədəbi təmayülləri və cərəyanları ayird etməyə, müstəqillik dövrü ədəbiyyatının mərhələləri arasındakı hərəkət fərqini üzə çıxarmağa yaxından kömək edib. Ciddi elmi-nəzəri yazılar mürəkkəbliyi və genişliyi ilə seçilən bir dövrün ədəbiyyatı haqda ümumi mənzərəni yaratmaqla, bu dövr ədəbiyyatının əsas konturlarını cızıb oxucuya təqdim etməklə kitabın vahid bir orqanizmə çevrilməsində mühüm rol oynayıb.

Monoqrafik tədqiqat kimi ortaya çıxan kitabda müstəqillik dövrünün ədəbiyyatı iki əsas mərhələyə bölünür: sovet düşüncəsindən müstəqillik düşüncəsinə keçid mərhələsi kimi xarakterizə olunan 1990-cı illər mərhələsi; XXI əsrdən başlayaraq müstəqillik zəminində tam ifadəsini tapan müasir mərhələ. Mərhələlərin hər ikisi kitabda eyni elmi struktur əsasında araşdırılır: ümumi elmi-nəzəri yazılar, icmal yazıları və portret oçerkləri. Paytaxtda və ya hər hansı bir bölgədə yaşamağından asılı olmayaraq, yaşlı, orta və gənc nəsil nümayəndələrinin yaradıcılığını əhatə edən portret oçerklər kitab müəlliflərinə ədəbi prosesi yetərincə geniş bir müstəvidə izləmək imkanı verir. İlk portret oçerklərini Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Araza həsr etmək vətəndaşlıq mövqeyi ilə seçilən bu sənətkarların nümunəsində yaxın onilliklərə nəzər salmaq, müstəqillik ideyalarının birbaşa ifadəsini həmin onilliklərin ədəbiyyatı əsasında araşdırmaq deməkdir. Məhz Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz kimi sənətkarların bədii yaradıcılığı əsas verir ki, müstəqillik ideyalarının sovet dövründəki ifadə yollarını müəyyənləşdirmək mümkün olsun. Həmin yollar kitabda belə müəyyənləşdirilir: ana dilinin və milli şüurun qorunması və inkişaf etdirilməsi; milli-tarixi yaddaşın bərpası; Azərbaycan idealının, milli vətənpərvərlik ruhunun yaşadılması; Azərbaycan insanının özünəməxsus obrazının yaradılması; milli ideya vasitəsilə qurtuluşa çağırışın bədii ifadəsi. Bu ideyalar zəminində formalaşan ədəbiyyatımızın 1990-cı illərdə baş mövzusu, təbii ki, milli istiqlal oldu. Sovet sisteminin dağılması ərəfəsində baş vermiş 20 yanvar və Dağlıq Qarabağ hadisələrini yazıçılarımız daha çox istiqlal düşüncəsi baxımından qələmə aldılar. 20 Yanvar və Qarabağ mövzuları xalqın milli azadlıq uğrunda mübarizəsini əks etdirməyin bir vasitəsi kimi şeir, nəsr və dramaturgiyamızda diqqət mərkəzinə çəkildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük uzaqgörənliyi ilə müstəqil dövlətçilik ideologiyası səviyyəsinə qaldırılan azərbaycançılıq çağdaş ədəbiyyatımızın əsas ideya istiqamətlərindən birinə çevrildi:

*Çək sinənə - qayaları yamaq elə,*
*Haqq yolunu ayağına dolaq elə,*
*Bayrağını Xəzər boyda bayraq elə,*
*Ayağa dur, Azərbaycan!*

**(Məmməd Araz)**

Əlbəttə, 20 Yanvarda silahsız və günahsız insanların qətlə yetirilməsi, Qarabağ münaqişəsi nəticəsində milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, eləcə də keçid dövrünün ciddi sosial çətinlikləri yalnız döyüşkənlik ovqatına rəvac verdi - desək, yanılar və 1990-cı illər ədəbiyyatımızdakı digər səciyyəvi meylləri nəzərə almamış olarıq. Keçid dövrü ədəbiyyatımızda məhz digər səciyyəvi meylləri nəzərə almağın göstəricisidir ki, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabındakı ümumiləşdirici və istiqamətverici nəzəri yazılardan birində bu fikirlər irəli sürülür: "1990-cı illər poeziyası daha çox cəmiyyətdəki dekadans ovqatını, mənəvi aşınma və etiraz ruhunu ortaya çıxarıb. 1960-1980-ci illər şeirində nəzərə çarpan modernist istiqamət də məhz bu dövrdə inkişaf üçün münbit şərait tapıb. B.Vahabzadənin, M.Arazın, Qabilin, N.Həsənzadənin, S.Rüstəmxanlının, Hidayətin, V.Bəhmənlinin, V.Məmmədovun və b. şairlərin sosial-mənəvi konfliktləri qabardan, bədii süzgəcdən keçirən şeirləri ilə yanaşı, V.Səmədoğlunun, R.Rövşənin, V.B.Odərin, A.Mirseyidin, R.Behrudinin, S.Sarvanın modern üslub və fəlsəfi məzmunu ilə seçilən poeziyası da keçid dövrünün dağınıq əhval-ruhiyyəsini hiss etməyə, dəyərləndirməyə imkan verir".

Modern üslub və fəlsəfi mündəricə ilə seçilmək poeziya ilə yanaşı, nəsr və dramaturgiyada da müşahidə olunur və bütövlükdə ədəbi prosesdə baş verən dəyişikliyin köklərini, yaranma səbəblərini araşdırmaq ehtiyacı yaranır. Həmin səbəblər "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında belə müəyyənləşdirilir: ictimai-siyasi və sosial mühitin xaotik vəziyyəti və onun doğurduğu inkarçılıq hissi; qloballaşma prosesinin başlanması nəticəsində cəmiyyətdə milli-mənəvi dəyərlərlə kosmopolit düşüncənin qarşı-qarşıya gəlməsi; dünya ədəbiyyatında gedən proseslərlə təmasın aktivləşməsi. Məhz dünya ədəbiyyatında gedən proseslərlə sıx əla-

# ədəbiyyat

qənin hesabına keçid dövrü nəsrimizdə mistik-magik realizm, dramaturgiyamızda absurd pyes, poeziyamızda dekadans şeir, avanqard şeir meyilləri özünü göstərir. "1980-ci illərin sonunda, azadlıq mücadiləsinin başladığı ilk illərdə poeziya nə qədər coşqulu, gələcəyə inamlı, ideya tərənnümçüsü kimi çıxış edirdisə, 1990-cı illərin əvvəllərindən başlayaraq onda pessimizm, çöküş, dekadans əhvalı hakim mövqeyə keçir". Dekadentizm üçün xarakterik olan subyektivizm, fərdiyyətçilik cəhətləri romantizm ədəbi cərəyanı üçün də səciyyəvidir. Romantizmdə sənətkar İdeal daşıyıcısı olan subyekti mənəvi güc-qüvvət sahibi kimi təqdim edir və onu Reala qarşı qoyur. Dekadentizmdə isə vəziyyət dəyişir, burada artıq subyektin güc-qüvvət sahibi olmasından danışmaq çətinləşir, çünki sənətkar sabaha inamdan çox sabaha inamsızlıq hissini, fanilik ovqatını ifadə etməyə meyil göstərir. Kitab müəllifləri XIX əsrin sonları Avropa poeziyasında müşahidə olunan bu cəhətləri 1990-cı illər Azərbaycan şerində də müşahidə edirlər: "1990-cı illər Azərbaycan şerində də ölümə məhkum edilmiş insanın qorxusu, özünə qapılması, təklənmiş, təcrid olunmuş Eqosu ön plana çıxır... Şair yaradıcılıq prosesində Ölümlə, Allahla üz-üzə durur... Özü üçün dünyanı yenidən qurmağa, amma bu dəfə reallıqda deyil, ondan uzaqda qurmağa çalışır". Şair öz əhvalını oxucuya bu cür çatdırır:

*Gecələr yastıq yerinə*
*Baş qoyuram qorxuya.*
*Bu qürbətdə vətən nədir,*
*Dünya girmir yuxuya.*

*Yediyim ehsan payıdır*
*Arzu, ümid yasında.*
*Əl uzadıb dayanıram*
*İntihar qapısında.*

**(Vaqif Səmədoğlu)**

Bu cür nümunələr gətirib çağdaş şerimizdəki dekadans ovqatı haqda aydın təsəvvür yaradan kitab müəllifləri 1990-cı illərdə bir-birinin ardınca xüsusi ədəbi proqramla ortaya çıxan "Baca", "Ağ yol", "2+", "Dəniz", "Avanqard", "Qarçiçəyi", "Eqo" və s. kimi ədəbi qruplara da xüsusi diqqət yetirirlər. Düşüncə sərbəstliyinə geniş meydan verildiyi bir şəraitdə bu cür ədəbi qrupların özündən əvvəlki ədəbiyyatı tənqid etmək zəminində yaranması kitabda ədəbi fikrin inkişafına əsaslı təsir göstərən amillərdən biri kimi qiymətləndirilir.

Söz yox ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ikinci mərhələsi birinci mərhələsinin davamıdır. İctimai-siyasi baxımdan bu mərhələ "ulu öndərin müəyyən etdiyi dövlətçilik kursunun dövlət başçısı İlham Əliyev tərəfindən qorunub saxlanılması, möhkəmləndirilməsi və yaradıcılıqla inkişaf etdirilməsi" epoxası kimi qiymətləndirilir və bu mərhələdə ədəbiyyatımızın başlıca ideya-məzmun istiqamətlərindən biri milli dövlətçilik idealına sədaqət, ümumbəşəri dəyərlərin milli dəyərlərlə vəhdətdə götürülməsidir. 1990-cı illər ədəbiyyatında başlanan ideya-məzmun və forma axtarışları 2000-ci illər ədəbiyyatında daha geniş miqyas alır və öz bəhrəsini verir. Janrların dinamikasını və üslub yeniliklərini birinci mərhələ ilə müqayisədə ikinci mərhələdə daha aydın izləmək mümkün olur. Bu mərhələdə dinamikası və üslubu ilə seçilən janrlar arasında roman janrı xüsusi yer tutur. Əvvəlki onilliyə nisbətən bu onillikdə daha çox sayda yazılan romanın məzmun və formaca rəngarəng nümunələri ilə tanış oluruq. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında ideya-məzmun, mövzu və problematika baxımından 2000-ci illər romanının "müasir mövzulu roman", "tarixi roman" kimi bölgüləri üzərində xüsusi dayanılır, belə hesab edilir ki, istiqlal və milli özünüdərk düşüncəsini epik müstəvidə əks etdirməyin mühüm vasitələrindən biri bugünkü ictimai-siyasi hadisələrə (ən çox da Qarabağ hadisələrinə və həmin hadisələrin mənəvi-psixoloji nəticələrinə) üz tutmaqdır (Sabir Əhmədlinin "Axirət sevdası", Elçinin "Bayraqdar", Mövlud Süleymanlının "Erməni adındakı hərflər", Seyran Səxavətin "Nekroloq", Aqil Abbasın "Dolu", Səfər Alışarlının "Maestro", Əlabbasın "Qaraqovaq çölləri", Şərif Ağayarın "Haramı" romanlarında olduğu kimi). İstiqlal və milli özünüdərk düşüncəsini əks etdirməyin digər mühüm vasitəsi, kitab müəlliflərinin fikrincə, yaxın və uzaq keçmişimizin ibrətamiz səhifələrinə baş vurmaqdır (Sabir Rüstəmxanlının "Xətai yurdu", "Göy Tanrı", "Ölüm zirvəsi", "Difai fədailəri", "Şər və şair", Əfqanın "Şahlar şahı", Mustafa Çəmənlinin "Xallı gürzə", "Ruhların üsyanı", "Ölüm mələyi", Hüseynbala Mirələmovun "Nadir şah", Elçin Hüseynbəylinin "Şah Abbas", Sona Vəliyevanın "İşığa gedən yol", İlqar Fəhminin "Bakı tarixindən kollaj", Nəriman Əbdülrəhmanlının "Yüz ilin "Əli və Nino" əfsanəsi" romanlarında olduğu kimi). "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında 2000-ci illər romanının forma və üslub baxımından təsnifatı isə faktik material əsasında belə aparılır: realist-psixoloji roman, şərti-metaforik roman, modernist-ekzistensial roman, bədii-sənədli roman, detektiv roman, postmodern roman. Postmodernizmin çağdaş ədəbiyyatımızda bütün ədəbi növləri əhatə etməsi faktına əsaslanan kitab müəllifləri postmodern roman üzərində qismən geniş dayanmağa, bu roman tipinin, bütövlükdə postmodernizm təmayülünün yaranma səbəblərini və başlıca xətlərini üzə çıxarmağa zəruri ehtiyac görürlər: "Niyə bizim milli ədəbiyyatımızda bu təmayülün (postmodernizmin - **M.K.**) funksionallığı daha çox müstəqillik illərinə təsadüf elədi? Yalnız ona görə ki, sovet imperiyası qapını hər cür cərəyanın üzünə qapamışdı?! Bəlkə həm də ona görə ki, milli ruhun bunu... mənəvi durum olaraq yaşaması gərək idi". Müstəqillik dövründə özünü bir fərd olaraq sərbəst hiss edən və yeni yolla getmək istəyən yazıçı ədəbi irsə fərqli mövqedən yanaşmağa, ədəbi büt anlayışından uzaq olmağa, məlum və məşhur mətnləri gözlənilməz baxış bucağından dəyərləndirib yeni müstəvidə təqdim etməyə başlayır. Bu kimi cəhətlərlə xarakterizə edilən postmodernizm təmayülü "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında ən çox Kamal Abdullanın adı ilə əlaqələndirilir. Belə hesab edilir ki, postmodern şeirləri və pyesləri ilə diqqəti əsaslı şəkildə cəlb edən, "Azərbaycan postmodernizm ədəbiyyatının yaradıcısı" sayılan Kamal Abdulla "Sehrbazlar dərəsi", "Yarımçıq əlyazma", "Unutmağa kimsə yox" əsərləri ilə postmodern Azərbaycan romanının da ilk nümunələrini yaradıb. 2000-ci illərdə meydana çıxan "Qarğa yuvası" (İlqar Fəhmi), "Çöl" (Kərəmət Böyükçöl), "Nekroloq" (Həmid Herisçi), "Yad dildə" (Pərviz Cəbrayıl), "Aç, mənəm" (Nərmin Kamal), "Göləqarğısancanlar" (Aqşin Yenisey) və s. əsərlər postmodern roman yaradıcılığının artıq çağdaş nəsrdə xüsusi bir istiqamətə çevrilməsindən xəbər verib.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında çağdaş mərhələ üçün səciyyəvi olan təmayüllər içərisində magik realizm təmayüllərindən xüsusi bəhs edilir. Belə hesab edilir ki, müxtəlif mistik əhvalatların və obrazların əks etdirilməsi ilə müəyyənləşən, dünya ədəbiyyatında Q.Q.Markes, X.Kortasar, M.Bulqakov və b. yazıçıların yaradıcılığı üçün səciyyəvi olan magik realizmə çağdaş Azərbaycan ədəbiyyatından "Deyilənlər gəldi başa" (Yusif Səmədoğlu), "Göz muncuğu"" (Anar) tipli əsərləri misal çəkmək və həmin istiqamətin ədəbiyyatımızda artıq oturuşmasından danışmaq olar.

1990-cı illərdə istiqlal və milli özünüdərk düşüncəsini qabarıq şəkildə əks etdirmək baxımından şeir və nəsrlə yanaşı addımlayan dramaturgiyanın 2000-ci illərdə məzmun və forma axtarışları daha da intensivləşir, Elçin, Vaqif Səmədoğlu, Kamal Abdulla, Afaq Məsud, Əli Əmirli, Hüseynbala Mirələmov, Firuz Mustafa və başqa yazıçıların yaradıcılığı timsalında teatrımız ənənə və novatorluğun üz-üzə gəldiyi, bəzən qaynayıb-qarışdığı, bəzənsə biri digərini əvəz etdiyi ədəbi məkana çevrilir. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabında çağdaş dramaturgiyamız hərtərəfli araşdırılarkən modern pyes, absurd pyes anlayışları bu dramaturgiyanın mühüm özəlliklərindən biri kimi diqqətə çatdırılır, yazıçı Elçin "Mən sənin dayınam", "Dəlixanadan dəli qaçıb", "Mənim sevimli dəlim", "Arılar arasında", "Şekspir", "Qatil", "Cəhənnəm sakinləri", "Teleskop" və s. kimi əsərləri ilə ədəbiyyatımızda absurd pyesin əsas yaradıcısı hesab olunur.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının müəllifləri (akademik İsa Həbibbəyli başda olmaqla) istər 1990-cı illər, istərsə də 2000-ci illər ədəbi prosesinə hərtərəfli yanaşmağa, ədəbi prosesin bütün sahələrini imkan daxilində araşdırmaya cəlb etməyə çalışırlar. Bu prinsipi əsas götürməyin müsbət nəticəsidir ki, bölgələrdə ədəbiyyat, uşaq ədəbiyyatı, ədəbi əlaqələr, tənqid və ədəbiyyatşünaslıq xüsusi məsələlər və problemlər olaraq diqqət mərkəzinə çəkilir, müstəqillik dövrünün ədəbi-nəzəri fikri kitabda ədəbi-nəzəri fikrin müstəqilliyi istiqamətində nəzərdən keçirilir.

Yekun olaraq bildiririk ki, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun uğuru və müstəqillik bayramına bu qurumun layiqli töhfəsi hesab etdiyimiz "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabı müasir ədəbiyyatımızda gedən mürəkkəb və mürəkkəb olduğu qədər də maraqlı proseslər barədə dolğun elmi təsəvvür yaradan və yeni-yeni araşdırmalara rəvac verən fundamental bir kitabdır. Azərbaycan ədəbiyyatının müstəqillik dövrünə həsr olunmuş birinci monoqrafik tədqiqat kimi də bu əsər mühüm əhəmiyyət daşıyır.

**Ədəbiyyat.- 2016- cı il.- 3 dekabr.- S. 23.**